Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

# Əbədi şöhrət

*O, həyatı ilə ölümə qələbə çaldı, ölümü ilə həyatı qazandı.*

**Mirzə İbrahimov**

**1941-1945-ci illər müharibəsi cəbhələrində əbədi şöhrət qazanmış azərbaycanlı qəhrəmanları xatırlayarkən ilk növbədə tank qoşunları general-mayoru Həzi Aslanovun parlaq surəti xəyalımızda canlanır. Azərbaycan xalqının şanlı oğlu, tank döyüşlərinin görkəmli təşkilatçısı, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanov Böyük Vətən Müharibəsi tarixinə cəsur əsgər, iradəli zabit, hərbi rəislərə xas olan qabilliyətlərə malik istedadlı sərkərdə kimi daxil olmuşdur.**

On dörd yaşından başlayaraq onun bütün şüurlu həyatı ordu ilə bağlı olmuşdur. 1924-cü ildə Lənkərandan Bakıya gələrək, Zaqafqaziya hərbi hazırlıq məktəbini bitirən Həzi, hərbi biliklərini təkmilləşdirmək məqsədilə Leninqrad süvari məktəbində və Zirehli Tank qoşunları Hərbi Akademiyası nəzdindəki kurslarda təhsilini davam etdirir, Ukraynada, Belorusiyada qulluq edir.

Həzi Aslanov öz şanlı döyüş yolunu 1941-ci ilin noyabrında artıq təcrübəli tank bölməsi komandiri kimi Moskva ətrafında başlamışdı. Bu zaman 50-dən artıq alman faşist diviziyası Moskva üzərinə böyük hücuma keçmişdi. Hitler nəyin bahasına olursa-olsun Moskvanın alınmasını əmr etmişdi. Lakin Moskva uğrunda vuruşan hər bir döyüşçü bilirdi ki, burada Vətənin taleyi həll olunur. Onları eyni bir fikir birləşdirirdi: "Öldü var, geri çəkildi yoxdur". Onların bu fikri qəhrəman panfilovçuların ölməz andlarında ifadə olunmuşdu: "Rusiya böyükdür, amma geriyə yol yoxdur, arxada Moskvadır" .

Tarixi döyüş zamanı Mojaysk istiqamətində vuruşan nişançı bölmələrdən birini düşmən mühasirəyə almışdı. Komandanlıq tank bölməsi komandiri kapitan H.Aslanova düşmənin mühasirə halqasını yarıb, qoşunlarımızı xilas etmək əmrini verdi. H.Aslanov ən mürəkkəb şəraitdə komandanlığın əmrlərini təmkinlə və qətiyyətlə yerinə yetirirdi. Onun döyüşçüləri tankların tırtıllarının gözlənilməz zərbəsi ilə düşmənin atəş nöqtələrini dağıdaraq, almanların seçmə diviziyalarını bir-birinin ardınca darmadağın edirdilər. Hücumun həlledici anında komandir tankının sürücü- mexaniki ağır yaralanır. H.Aslanov döyüşə rəhbərliyi davam etdirərək, özü tankla hücuma keçir. Onun başçılıq etdiyi bölmə qoşunlarımızı və hərbi sursatla dolu 50-dən artıq avtomaşınımızı mühasirədən çıxarır və hitlerçilərin şiddətli hücumlarını mərdliklə dəf edərək, onlara hədsiz tələfat verdirir. Döyüşdə H.Aslanov "Dəmir xaç" nişanı ilə mükafatlandırılmış iki alman zabitini şəxsən özü məhv etmişdi. Kapitan H.Aslanovun bölməsi Moskva uğrunda böyük və tarixi çarpışmada əbədi şöhrət qazandı. Bu döyüşdə Hitler ordusunun məğlubedilməzliyi haqqında əfsanə puç oldu. H.Aslanov özünün igid komandir olduğunu sübut etdi. Komandanlığın döyüş əmrini yüksək səviyyədə yerinə yetirdiyinə görə o, ilk döyüş mükafatı - "Qırmızı Ulduz" ordeni ilə təltif edildi və podpolkovnik rütbəsi aldı.

Moskva yaxınlığında alman qoşunları darmadağın edildikdən sonra podpolkovnik H.Aslanovun bölməsi Cənuba göndərildi. H.Aslanov bütün döyüş təcrübəsini, hərbi məharətini Cənub rayonlarının müdafiəsinə verirdi. Onlar Xarkov ətrafında, Krım cəbhəsində, Kubanda, Stavropol istiqamətində, Krasnodarda, Don çayı sahilində vuruşdular. Faşistlər igid tankçıların zərbələrinə davam gətirməyib geri çəkildilər. Döyüşlər zamanı H.Aslanov misilsiz şücaət göstərdi.

Həmin vaxtlarda H.Aslanov balaca oğluna göndərdiyi məktubunda yazırdı:

"Mənim əziz Tofiqim! Yazırsan ki, atacan, faşistləri bərk əzişdir! Gül balam, mən sənin tapşırığını dürüst yerinə yetirirəm. Aprelin 22-də hücuma keçdik, tankımın tırtılları ilə 200 hitlerçini əzdim. Bunu sənin səadətin və xalqımızın xoşbəxtliyi üçün edirəm" .

Cəsur podpolkovnikin şəxsiyyətini onun şanlı tankçılarından biri, qvardiya kiçik leytenantı V.Simonov çox doğru və inandırıcılıqla təsvir etmişdir: "Bizim komandir üzdə sakit və sadə adamdır. O, bəstəboy, arıq bir oğlandır və adətən təsəvvür olunan qəhrəmanlara az oxşayır. Yalnız döyüş zamanı çox təhlükəli dəqiqələrdə podpolkovnik Aslanovu yaxından görənlər onun nə qədər igid, cəsur və zirək olduğunu bilirlər" . 1942-ci ilin yay döyüşlərinin qızğın çağında H.Aslanovun Stalinqrad cəbhəsi 2-ci qvardiya ordusunun tərkibinə daxil olan 55-ci ələhiddə tank alayının komandiri təyin edilməsi haqqında əmr gəldi və o, Stalinqradın müdafiəsinə göndərildi. H.Aslanov özünə xas olan enerji ilə alayın şəxsi heyətini və döyüş taktikasını Stalinqrad altında tarixi əks-hücuma hazırladı. 1942-ci il noyabrın 19-da Sovet qoşunları Stalinqrad ətrafında böyük hücuma keçmişdi. Döyüşün elə ilk saatında H.Aslanovun tankçıları qəflətən cinahdan vurduqları zərbə ilə faşistlərin möhkəmləndirilmiş müdafiə xəttini yarıb, düşmən mövqeyinin içərilərinə irəlilədilər, müstəsna rəşadət göstərdilər. Alman qüvvələri alayın qüvvələrindən üç-dörd qat üstün olmasına baxmayaraq, dördüncü mexanikləşdirilmiş korpusun başqa hissələri ilə birlikdə düşmənin 12 həmləsi dəf edildi.


ГЕРОЮ СОВЕТСКОГО СОЮЗА

СОЮЗ СОВЕТСКИХ СОЦИАЛИСТИЧЕСКИХ РЕСПУБЛИК

Тов. Асланов Ази Агадович

За ваш геройский подвиг в боях с немецкими захватчиками в районе Сталинграда

ПРЕЗИДИУМ ВЕРХОВНОГО СОВЕТА СССР своим указом от ... 194 г. присвоил вам звание Героя Советского Союза

Председатель Президиума Верховного Совета СССР

Секретарь Президиума Верховного Совета СССР

Москва – Кремль. 6 февр. 1943 г.

**H.Aslanovun Sovet İttifaqı Qəhrəmanı kitabçası**

H.Aslanov həyat yoldaşı Xavər xanıma yazdığı məktubunda deyirdi: "İndi bərk vuruşuruq. Düşmən hər gün Stalinqrad üzərinə yeni-yeni qüvvələr göndərir. Onlar gündə dörd dəfə hücuma keçirlər, qabağa soxulmaq istəyirlər, qoymuruq. Hərb meydanında düşmənin minlərlə əsgəri ölür və yaralanır, düşmən geri çəkilir" .

Qısa müddət ərzində H.Aslanovun alayı düşmənin 50 tank, 5 minaatan batareya, 10 əl pulemyotu, 10 tankvuran topunu məhv etdi. Yüzlərlə hitlerçi qırıldı, 700 zabit və əsgər əsir alındı. Alay bir gündə 40 kilometrdən artıq yolu keçərək, noyabrın 21-də Stalinqrad - Salsk dəmir yolu xəttini tutdu və Cənub - Qərb cəbhəsinin hərəkətdə olan hissələri ilə birləşərək, düşmənin 330 minlik ordusunu mühasirəyə aldı. Noyabrın 22-23-də H.Aslanovun alayı hücumu davam etdirərək, Sovetski stansiyasına çatdı. Bunula da Stalinqrada gedən və düşmən qoşunlarını təchiz edən dəmir yolu ilə hərəkət kəsildi. Döyüşdə H Aslanovun alayı 30 düşmən tankını, 50 avtomobilini məhv etdi. Qənimət olaraq 13 tank, 125 yük maşını, 12 minik maşını, 30 motosiklet, 30 araba yük, bir anbar döyüş sursatı, bir anbar ərzaq, geyim və b. hərbi ləvazimat ələ keçirildi.



Stalinqrad vuruşmalarında bacarıqlı manevr, düşmən üzərində cinahdan hücum və qəfildən cəsarətli zərbə ustası kimi tanınmış H.Aslanov özünü həm də müasir hərbi elmin zirvələrinə yiyələnmiş mahir bir komandir kimi göstərdi. O, özünün "Cinahlardan zərbə" adlı məqaləsində yazırdı: "Düşmənə cinahlardan zərbə endirmək, döyüşdə əsas qaydamdır. Bu taktika mənim komandanlığım altında vuruşan bölməyə nailiyyət qazandırır. Döyüşçülərim bu taktikanı yaxşı mənimsəmişlər və müvəffəqiyyətlə tətbiq edirlər" .

Göstərdiyi sücaətə görə H.Aslanovun komandirlik etdiyi 55-ci tank alayı Qvardiya alayı adını aldı, komandirinə isə igidlik və qəhrəmanlıq göstərdiyinə, ixtiyarında olan hissələrə bacarıqla və mərdliklə rəhbərlik etdiyinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 dekabr 1942 ci il tarixli fərmanı ilə Lenin ordeni və "Qızıl Ulduz" medalı təqdim edilməklə Sovet İttifaqı Qəhrəmanı adı verildi .

"Krasnaya zvezda" qəzeti 24 dekabr 1942-ci il tarixli nömrəsində yazırdı: "Müharibələr tarixi Həzi Aslanov və onun döyüş dostları kimi mərdliklə vuruşan igidlər görməmişdir. Düşmən tankları və piyada qoşunları nə qədər güclü olsalar da, qadir, möhkəm iradəli komandir olan Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun rəhbərlik etdiyi hissənin mövqeyinə keçə bilməz".

1942-ci il dekabrın 29-da "Bakinski raboçi" qəzetində anası Nuşu Bağı qızının H.Aslanova məktubu dərc olunmuşdu. Məktubda deyilirdi: "İstəkli oğlum Həzi! Cəbhədə qəhrəmanlıq göstərdiyini və hökumət tərəfindən belə yüksək mükafat aldığını eşitdikdə çox sevindim. Sənin qoçaqlığın ürəyimi qürur hissi ilə doldurur. Əziz balam, mən səninlə fəxr edirəm".

Qvardiya tankçıları Stalinqraddan sonra Rostov-na-Donu və Kiyev şəhərləri uğrunda döyüşlərdə düşmənə ağır zərbələr endirdilər. Döyüşdə sınaqdan çıxmış qvardiyaçı zabitlər inanırdılar ki, Aslanovun planı üzrə gedən döyüş mütləq qələbə ilə nəticələnəcəkdir. Onun ruhlandırıcı sözləri döyüşçüləri qələbəyə çağırırdı. Qvardiya kiçik leytenantı Simonov deyirdi: "Biz qabağımızda komandirin tankını görür və inanırdıq ki, o, bizi qələbəyə doğru aparır. Biz qəzəblə, cəsarətlə, ehtirasla vuruşurduq. Faşistlər bizim zərbəmizə tab gətirmədilər. Düşmən tankları geri döndülər. Cəsarətli hücumumuz onları qorxuya saldı" .

1943-cü ilin yanvar ayında Sovet ittifaqı Qəhrəmanı Həzi Aslanova polkovnik rütbəsi verildi. Həmin il cəsur polkovnik Belqorod, Sumi, Axtırka, Poltava, Lebedino, Qadyac, Mirqorod, Romodan, Zolotonos və b. şəhərlərin azad edilməsində iştirak etdi. Dəhşətli döyüşlər zamanı H.Aslanov əla keyfiyyətləri - hərbi biliyi, yüksək sərkərdəlik bacarığı, qalibiyyətə çağırışı ilə döyüşçülərdə qələbəyə inam, düşmənə nifrət, işğalçı faşist ordusuna qarşı amansızlıq, vətənə məhəbbət hissi aşılayır, öz şəxsi nümunəsi ilə əsgər və zabitləri irəli aparırdı. Alman faşistləri ilə döyüşlərdə iki dəfə sağ qıçından və bir qədər sonra alman mərmisinin qəlpəsi ilə başından ağır yaralanmasına baxmayaraq, H.Aslanov cəbhə arxasına göndərilməsindən qəti imtina etmişdi. O, döyüşçülərini tərk etməyərək, onlara rəhbərlik etməklə yanaşı, özü də silaha əl ataraq, yaralı halda faşistlərlə qəhrəmancasına vuruşmuşdu. Müharibənin hər günü H.Aslanov və onun döyüşçüləri üçün böyük sınaq idi. Bu döyüşlərdə onlar bərkiyir, fərqlənir və gələcək qələbələr üçün əsgəri təcrübə toplayırdılar.

**"Сын Отечества"** qəzetinin 1943-cü il 13 yanvar tarixli sayı bütünlüklə H.Aslanovun igidliyinə həsr olunmuşdu. Qəzetin baş məqaləsində deyilirdi: "... tankların əməliyyatını piyada qoşunların və artilleriyanın əməliyyatı ilə necə əlaqələndirməyi qvardiya polkovniki Aslanovun hissəsindən öyrənmək lazımdır. Qoy Sovet İttifaqı Qəhrəmanı Aslanovun tankçılarının döyüş fəaliyyəti bütün bölmələrimiz üçün nümunə olsun..." .

Volqa sahillərində gərgin döyüşlərdə qazanılmış Qvardiya Qırmızı bayrağı 1943-cü il iyulun 17-də saxlanılmaq üçün Həzi Aslanovun tankçılarına etibar edildi.

H.Aslanov cəbhədə misli görünməmiş qəhrəmanlıqlar göstərməklə yanaşı arxa cəbhəni də unutmurdu. Onun "Qəti qələbə günümüz yaxınlaşır" məqaləsində deyilirdi: "Əziz yoldaşlar, şanlı Bakı neftçiləri, silah ustaları, kolxozçular! Səylərinizi qat-qat artırın. Biz döyüşçülər də öz addımımızı sürətləndiririk. Qələbə günü yaxındadır. Biz buna inanırıq" .

**Rəna Səfərova**
**AMEA Milli Azərbaycan Tarixi Muzeyinin aparıcı elmi işçisi**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***